**Mayis ƏLİYEV**
BDU-nun Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru
e-mail: aliyev.mayis@mail.ru

# SOSİAL TƏMİNAT SAHƏSİNDƏ MÜBAHİSƏ: HÜQUQİ ASPEKT

**Açar sözlər:** hüquqi tənzimetmə, sosial, mübahisə, nəzəri, praktiki, təminat, məhkəmə

**Ключевые слова:** государство, спор, человек, механизм, социальное обеспечение, право

**Keywords:** state, dispute, man, mechanism, social security, law

İnsanın əsas sosial-iqtisadi hüquqları içərisində mühüm yerlərdən birini Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində əks olunmuş sosial təminat hüququ tutur. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində hər bir şəxsin yaşına, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirməyə görə və qanunla nəzərdə tutulan digər hallarda sosial təminat hüququnun təmin edilməsi təsbit olunmuşdur. Ona görə ki, cəmiyyətin üzvü olan hər bir vətəndaşın sosial təminata olan konstitusion hüququ onun qanunla müəyyən edilmiş hallarda və məbləğdə sosial təminatın müvafiq növlərini (pensiya, müavinat, sosial xidmət və s.) almaq hüququnu nəzərdə tutur. Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsinin II hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, o cümlədən insanın subyektiv hüququ kimi çıxış edən sosial təminat hüququnun həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz [1, 100].

Prof. M.F.Məlikova haqlı olaraq göstərir ki, əksər hallarda insanlar öz hüquqlarını müvafiq dövlət orqanlarına müraciət etməklə, vəzifəli şəxslərin hərəkətlərindən müvafiq instansiyalara şikayət etməklə müdafiə və ya bərpa edirlər [6, 53].

Məlumdur ki, sosial müdafiə sistemi daxilində istənilən sosial təminat növü ilə bağlı mübahisə yarana bilər. «Sosial təminat sahəsində mübahisə» anlayışı ilə «sosial təminat məsələləri üzrə mübahisələr» anlayışı bir-birinə münasibətdə ümumi və xüsusi kateqoriyalar kimi çıxış edirlər. Bu halda birinci anlayış özündə sosial təminatın bütün üç alt sistemi də formalaşan mübahisələrin məcmusunu birləşdirir, sosial təminat məsələləri üzrə mübahisələr anlayışından isə yalnız sosial təminat fondlarının bölüşdürülməsi alt sistemində yaranan münasibətlərə münasibətdə istifadə edilir. Sosial təminat məsələləri üzrə mübahisələr sosial təminat üzrə maddi və ya prosedur hüquq münasibətlərinin tərəfləri arasında yaranan və həll edilməsi məqsədi ilə səlahiyyətli orqana verilən fikir ayrılığı kimi xarakterizə etmək olar. Mübahisə isə səlahiyyətli orqana şikayət verilməsi əsasında yaranmış olur. Normativ hüquqi aktların təhlili əsasında göstərmək lazımdır ki, qanunvericilik «şikayət» terminindən daha çox vətəndaşa konkret hüquq tətbiq etmə aktından şikayət edilməsi imkanı verilməsi zamanı istifadə edir. (bir qayda olaraq hər hansı sosial təminat növünün verilməsindən imtina edilməsi zamanı). Məsələn, «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikasının 07 fevral 2006-cı il qanununun 2.3-cü maddəsinə əsasən, müavinət verilməsindən imtina haqqında qərardan ərizəçi məhkəməyə şikayət edə bilər [8]. Göründüyü kimi qanunverici maraqlı şəxsə bu sahədəki orqan və təşkilatların istənilən qərarını və hərəkətindən (hərəkətsizliyi) şikayət vermək hüququ verir. Belə tendensiya həm qanunvericilik aktları, həm də qanunqüvvəli aktlar səviyyəsində müşahidə edilir. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 10.3-cü maddəsinə əsasən sosial yardımın verilməsinə təsir edəcək zəruri məlumatların verilməməsi, yaxud ailə tərkibi

və ailə üzvlərinin gəlirləri barədə düzgün olmayan məlumatların verilməsi səbəbindən artıq yardım ödənildiyi hallarda, ailə artıq ödənilmiş sosial yardımın məbləğini kö-nüllü qaydada müvafiq icra hakimiyyəti orqanına qaytarmalıdır, bundan imtina edilərsə, bu barədə mübahisəyə məhkəmə qaydasında baxılır.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində dövlət tərəfindən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi, müəyyən edilməsi və qərar qəbul edilməsi üçün düzgün olmayan məlumatın verilməsinə, dövlət tərəfindən sosial xidmət göstərilməsinin dayandırılmasına təsir göstərən dəyişikliklər barədə sosial xidmət göstərən subyektlərin məlumatlandırılmamasına görə məsuliyyət nəzərdə tutulmuşdur.

Fikrimizcə, göstərilən anlayışlar arasında fərq qanunvericilik texnikasının qeyri-təkmil olması ilə bağlıdır. Azərbaycan Respublikasının mövcud qanunvericiliyində sosial təminat məsələləri üzrə mübahisələrin həllinin prosessual xüsusiyyətlərinin nəzərdə tutulmaması normativ aktlarda xüsusi normalar təsbit edilməməsinə gətirib çıxarmışdır. Göründüyü kimi sosial təminata dair qanunvericilik aktlarında hüquqları pozulmuş şəxslərin yalnız məhkəməyə müraciət edə bilmələri təsbit edilir və bu baxımdandan məhkəmələr yüklənir. Lakin "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununu vətəndaşlara inzibati qaydada şikayət vermək imkanını yaradır və vətəndaşlar yuxarı orqana müraciət etmədən birbaşa məhkəməyə müracitə edirlər ki, bu da məhkəmələrdə iş yükünü artırır. Bu baxımdan hesab edirik ki, sosial təminat qanunvericiliklərinə aşağıdakı məzmunda əlavənin edilməsi məqsədəmüvafiq olardı: "Bu Qanunun tələblərinin pozulmasına görə hüquqları pozulmuş şəxslər hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədi ilə inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan, inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şikayət edə bilər və ya Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilərlər".

F.M.Əliyeva müstəqil hüquq sahəsi kimi sosial təminat hüququnun predmetinə digər hüquq münasibətləri ilə yanaşı sosial təminat məsələlərinə dair mübahisələrə baxılması üzrə münasibətlər də aid edir [5, 215-227].

Əksər müəlliflərin [3, 71; 4, 172-183; 9, 89] mövqeyi ilə razılaşaraq hesab edirik ki, tədqiq edilən problemin sahəsi sosial təminat hüququnun predmetinə daxil olan prosessual və prosedur hüquq münasibətlərinin sferasına daxildir. Prosessual hüquq münasibətləri maddi hüquq münasibətləri ilə sıx bağlı olsa da müstəqildirlər: bu münasibətlər sosial təminat məsələlərinə baxılması ilə bağlı yaranır, subyektlərindən biri kimi mütləq qanunvericilik tərəfindən onu həll etmək imkanı verilmiş səlahiyyətli orqan çıxış edir. Prosesdə iştirak edən bütün şəxslər səlahiyyətli orqana münasibətdə hüquq və vəzifələrə malik olurlar.

Tədqiq edilən hüquq münasibətləri ilə bağlı olan fikir ayrılıqları onların ümumi qanunauyğunluqlarını dəyişmir. Fikrimizcə, bu münasibətlər üçün ümumi əlaqələndirici xüsusiyyətlər kimi maddi münasibətlərlə sıx bağlı olması, mühafizəedici istiqamət daşıması, dəqiq şəkildə hüquqi tənzimlənməsi çıxış edir.

Hüquq ədəbiyyatında göstərilir ki, sosial təminat hüququnun predmetinə daxil olan münasibətlər bölüşdürücü xarakterə malikdir; bu münasibətlərdə bərabərlik olmasa da tərəflər bir-birinin qarşısında ümumi hüquqi (inzibati, cina-yət) məsuliyyət daşımırlar; sosial təminat sistemində maddi nemətləri alan iqtisadi cəhətdən asılı olduğu üçün onun əmlak məsuliyyətini məhdudlaşdırır; sosial təminat hüququnda digər tərəfin pozulmuş hüquqlarının bərpası üçün əmlak bərpaedici sanksiyalar geniş yayılmışdır(10, 132).

Tədqiqatçı alim R.İ.Mürşüdovun fikrincə, sosial təminat hüquq normalarının pozulması normanı pozan subyektə dövlət məcburiyyət tədbirlərinin tət-biq olunması ilə nəticələnir.Vətəndaşların əksəriyyət hissəsi sosial təminat hüquqlarından vicdanla istifadə edirlər. Lakin bəzi vətəndaşlar əmək və sığorta stajı, peşə, əmək şəraiti və hüquqi əhəmiyyət kəsb edən digər faktlar barəsində saxta sənədlər təqdim etmək yolu ilə qeyri-qanuni ödənişlər və ya sosial xidmətlər əldə edirlər (7, 182).

Sosial təminat məsələləri üzrə mübahisələrin təsnifatı da mühüm əhəmiyyət kəsb edir. Fikri-

mizcə, mübahisələrin təsnifatı sosial təminat məsələləri üzrə mübahisələrə baxmağa səlahiyyətli olan orqanın dəqiq şəkildə müəyyən edilməsinə, hüquq elmi baxımından isə daha mühüm mübahisəli hüquq münasibətləri qrupunu müəyyən etməyə və gələcəkdə bu təsnifat əsasında qanunvericilik və hüquqtətbiqetmə orqanları üçün praktiki tövsiyələr hazırlamağa kömək edəcəkdir. Müxtəlif əsaslar üzrə mübahisələrin təsnifləşdirilməsi onların həlli üzrə praktikanın ümumiləşdirilməsinə kömək edəcək, mübahisələrin həlli prosedurunun səmərəliliyini üzə çıxaracaq və qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsi üzrə elmi tövsiyələrin hazırlanmasını asanlaşdıracaqdır. Sosial təminat məsələləri üzrə mübahisələri inzibati və məhkəmə qaydasında həll edilən, həmçinin həm inzibati, həm də məhkəmə qaydasında həll edilən mübahisələr kimi növlərə bölmək olar.

Subyektiv tərkibindən asılı olaraq sosial təminat məsələləri üzrə mübahisələr vətəndaşla tibbi-sosial ekspert komissiyası arasındakı mübahisələrə (vətəndaşın əlil kimi tanınması, əlilliyin dərəcəsi, müəyyən edilməsi vaxtı ilə) vətəndaşla onun əmək münasibətlərində olan təşkilat arasındakı mübahisələrə (təşkilat rəhbərinin təqsiri üzündən pensiya təyin edilməsi üçün sənədlərin hazırlanmasının gecikdirilməsi ilə bağlı, müavinətlərin təyin edilməsindən imtina edilməsi ilə bağlı, sosial sığorta stajının müddəti, pensiya təyin edilməsi üçün əmək haqqının məbləği, bu müavinət və sosial yardımın təqdim edilməsi, güzəştlərin müəyyən edilməsi ilə bağlı mübahisələr), vətəndaşla sosial təminat orqanları arasındakı mübahisələr (pensiya və ya müavinət təyin edilməsindən imtina edilməsi, pensiyalardan tutmalar, əlillərin protez-ortopedik vasitələr və xüsusi nəqliyyat vasitələri ilə təmin edilməsi və s.) fərqləndirilir.

Sosial təminat məsələləri üzrə mübahisələrin təsnifləşdirilməsinin böyük nəzəri və praktiki əhəmiyyəti vardır. O, sosial təminat məsələləri üzrə mübahisələrin sistemini müəyyən etməklə onların yaranması və inkişafı qanunauyğunluqlarını, tərəflərlə yurizdiksion orqanlar arasındakı qarşılıqlı münasibətlərin xarakterini üzə çıxarır, sosial təminat məsələləri üzrə mübahisələrin daha münaqişəli halları üzə çıxarır, konkret növ mübahisələr üçün xarakterik olan sübutlar sistemini müəyyən edir. Bu isə həmin sahədə mövcud olan hüquq münasibətlərinin daha səmərəli tənzimlənməsi mexanizminin yaradılmasına imkan verir, sosial təminat məsələləri üzrə mübahisələrin həlli üzrə inzibati və məhkəmə təcrübəsinin təhlili üçün metodoloji əsas yaradır.

Məlumdur ki, mübahisələrin yaranmasının səbəbi hüquq münasibətləri tərəfləri arasında arasında fikir ayrılıqlarına gətirib çıxaran hüquqi faktlardır. Mübahisələrin yaranması şərtləri isə eyni bir məsələ barəsində çoxsaylı mübahisələrin yaranmasına gətirib çıxaran və yaxud mövcud mübahisələri kəskinləşdirən faktorlardır.

Fikrimizcə, mübahisələrin yaranması səbəbi kimi müxtəlif hallar çıxış edə bilər. Bu siyasi, iqtisadi faktorlardan, dövlət hakimiyyəti və idarəetmə orqanlarının qəbul etdiyi yanlış hüquqi qərarlardan irəli gələ bilər.

Mübahisələrin səbəblərini daha rahat öyrənmək üçün onları münaqişə iştirakçılarının konkret səbəblərə təsiri imkanından asılı olaraq obyektiv və subyektiv səbəblər olmaqla iki qrupa bölmək lazımdır. Fikrimizcə, subyektiv səbəblərin əsasında münaqişəli hüquq münasibətlərinin subyektinin davranışını müəyyən edən, yaxud dəstəkləyən faktorlar dayanır. Mübahisələrin əsas səbəbləri kimi ilk növbədə sosial təminat hüquq normalarına riayət edilməməsi göstərilir. Bu isə hüquqi mədəniyyətin aşağı səviyyədə olması, yəni sosial təminat hüquq münasibətlərinin iştirakçılarının öz hüquq və vəzifələrini bilməməsi və ya tam bilməməsi ilə əlaqələndirilir. Belə səbəblər tez-tez yanlış münaqişələrə gətirib çıxarır.

Azərbaycan Respublikasının Konstitusiyasında və mövcud qanunvaricilikdə təsbit edilmiş müddəaların təhlili əsasında sosial təminat məsələləri üzrə mübahisəni geniş və dar mənadə izah etmək olar. Belə ki, mübahisə bir tərəfdən dövlətin sosial siyasətinin təzahürü, digər tərəfdən isə sosial müdafiənin təminatlarının tərkib hissəsi (dar mənada) və insan hüquqlarının müdafiəsi institutlarından biridir (geniş mənada). Sosial təminat sistemi kompleks və mürəkkəb təsisat olduğuna görə burada üç növ münasibətlərin alt sistemi fərqləndirilir: sosial müdafiə fondlarının formalaşdırılması üzrə münasibətlər, bu fondların vəsaitlərinin qorunması və idarə edilməsi üzrə

münasibətlər və nəhayət fondlardakı vəsaitlərin bölüşdürülməsi üzrə münasibətlər.

Sosial təminat məsələləri üzrə mübahisələrə inzibati prosesdə baxılarkən prosessual normalar maddi normalara nisbətən ikinci dərəcəli xarakter daşıyır. İnzibati proses mülki proseslə müqayisədə sadə hesab edilməlidir. Fikrimizcə, sosial təminat məsələləri üzrə inzibati prosesin obyekti kimi sosial təminat hüququ ilə tənzim edilən ictimai münasibətlər çıxış edir. İnzibati prosesin subyektiv tərkibi sosial təminat məsələləri üzrə mübahisələrin subyekti tərkibi ilə üst-üstə düşür. Münaqişə iştirakçılarından deyil, onların mübahisənin həlli üçün seçdikləri üsullardan asılı olaraq eyni bir mübahisəli hüquq münasibətində hüquq və vəzifələri mübahisəyə münasibətdə xüsusi davranış qaydaları ilə tənzim edilən subyekt iştirak edəcəkdir. Münaqişənin subyektləri (iştirakçıları) arasındakı qarşılıqlı əlaqələr də həmin qaydalarla tənzimlənəcəkdir.

İnzibati qaydada sosial təminat məsələləri üzrə mübahisələrə baxılması inzibati hüquq normaları ilə tənzimlənən inzibati yurizdiskion fəaliyyətin tərkib hissəsidir. Bu zaman daha obyektiv olması üçün göstərilən prosesin aşağıdakı mərhələləri fərqləndirilir:

- iş üzrə icraatın başlanması mərhələsi;
- işə baxılması üçün məsul olan vəzifəli şəxsləri, yaxud şəxslər qrupunun təyin edilməsi mərhələsi;
- işin həlli mərhələsi;
- vəzifəli şəxslərin qərarlarından şikayət verilməsi mərhələsi;
- qərarın icrası mərhələsi.

İnzibati qaydada sosial təminat məsələləri üzrə mübahisələr yuxarı sosial təminat orqanı tərəfindən aşağı orqanın və vəzifəli şəxsin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərə baxılması yolu ilə həll edilir.

Göstərmək lazımdır ki, sosial təminata olan hüquqların qorunması dövlət tərəfindən müəyyən edilən hüquqi aktlarda təsbit edilən vasitə və üsullardır. Məhz onların köməyi ilə vətəndaşların hüquq və maraqlarının müdafiəsi həyata keçirilir. Buraya həmçinin pozulduğu halda onların məcburi qaydada bərpası, həmçinin qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və həcmdə vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsi də daxildir. Müdafiə funksiyası həmçinin qanunçuluğun pozulmasına gətirib çıxaran səbəblərin qarşısının alınması və aradan qaldırılması üzrə bütün tədbirlərin məcmusunu, həmçinin sosial təminat hüquqlarını pozan və hüquqi vəzifələrini yerinə yetirməyən vəzifəli şəxslərin məsuliyyətini (inzibati, maddi və s.) özündə birləşdirir

Sosial təminat mübahisələri üzrə mübahisələrə baxılmasının məhkəmə mexanizminin təkmilləşdirilməsi məqsədilə qanunvericilikdə bir sıra müddəaların təsbit edilməsi məqsədəmüvafiq hesab edilir. Məsələn, sosial təminat məsələləri üzrə mübahisələrlə bağlı vətəndaşların şikayətlərinə və sosial təminat üçün əhəmiyyət kəsb edən hüquqi faktların müəyyən edilməsi üzrə ərizələrə maksimum 30 təqvim günü ərzində baxılmalıdır. Bu müddətlərin müəyyən edilməsi ilə dərhal gözlənilən nəticələr verməsi məhkəmələrin proseslərinin çox olması ilə əlaqədar qeyri-real olsa da göstərilən müddətlərin azalmasına kömək edəcək.

Vətəndaşa sosial təminatın müvafiq növünün verilməsi ilə bağlı icraya yönəlmiş məhkəmə qərarının ləğv edilməsi zamanı vətəndaşlar tərəfindən sui-istifadə hallarının baş verməsi (qəsdən saxta sənədlər təqdim etmə, hüquqi əhəmiyyət kəsb edən faktların gizlədilməsi) halları istisna olmaqla icradan geriyə dönüş yolverilməz hesab edilir. Bu müddəanın mülki prosessual qanunvericilikdə təsbit edilməsi təklif edilir.

Pensiya qanunvericiliyinin əsas fəlsəfəsi pensiya təminatı sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin formalaşdırılması ilə bağlıdır. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanunun 1.0.1-ci maddəsi ilə pensiyaya bu Qanunla nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortaolunanların (bundan sonra-sığorta olunan) onlara pensiya təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişi kimi anlayış verilmişdir [2]. Verilmiş anlayışdan

görünür ki, sığortaolunanın əmək pensiyası ona pensiya təyin olunduqdan əvvəl aldıqları əmək-haqqı və digər gəlirlərin kompensasiyası məqsədilə verilən pul ödənişidir. Bu məsələ ilə bağlı məhkəmə təcrübəsi isə göstərir ki, məhkəmələr artıq pensiya alan şəxslərə münasibətdə pensiya təyin edildikdən sonra almadıqları və məcburi dövlət sosial sığortasına cəlb edilməyən əmək haqlarına və ya ona edilən əlavələrə görə əmək pensiyalarının yenidən hesablaması barədə qərarlar qəbul edirlər. Hesab edirik ki, bu yolverilməzdir və sosial sığorta prinsiplərini özündə əks etdirən əmək pensiyaları haqqında qanunvericiliyin məzmununa ziddir.

Sosial təminat məsələləri üzrə mübahisələrin təhlili dövlətin sosial sahədə həyata keçirdiyi sosial siyasətin vətəndaşların ehtiyaclarına nə dərəcədə cavab verməsinin göstəricisidir. Bu sahədə mübahisələrə baxılması mexanizmi yurizdiksion sahədə həyata keçirilən sosial nəzarət mexanizminin elementlərindən biri kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, respublikamızın sosial təminat qanunvericiliyində sosial təminat məsələləri üzrə mübahisələrə baxılması qaydalarını tənzimləyən normaların və bu sahədə səlahiyyətli orqanların olmasına baxmayaraq, hüquqtətbiqetmə praktikası üçün kifayət qədər şərtlər yoxdur. Dövlətin fəaliyyətinin vacib aspekti kimi əhalinin hüquqlarının realizəsi mexanizmlərinin mövcudluğu və onların realizəsi qaydaları barədə məlumatlandırmaqdan ibarətdir. Bu zaman iki yanaşma təklif edilir: onlardan daha geniş yayılmışına görə dövlətin qanunvericilik səviyyəsində bu mübahisələrin həlli imkanların təsbit etməsi kifayətdir, bu mexanizmlər barəsində biliklər əldə etmə prosesi isə hər bir fərdin şəxsi təşəbbüskarlığından asılıdır. İkinci yanaşmanın mahiyyəti isə dövlətin öz vətəndaşlarını qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş imkanlar barəsində aktiv məlumatlandırmasından ibarətdir. Həmin vəzifələr qanunvericilik səviyyəsində dövlətin sosial təminat sahəsində funksiyasını həyata keçirən orqanlar üçün birbaşa şəkildə təsbit edilməlidir.

Yuxarıda göstərilən vəzifələrin normativ təsbitindən əlavə sosial təminat sahəsində çalışan işçilərin ixtisasının artırılması da zəruridir. Bu ixtisasartırmanın elementlərindən biri kimi ali məktəblərdə sosial təminat məsələlərinə dair mübahisələrə baxılması üzrə xüsusi kursların proqramlarının hazırlanması və həyata keçirilməsi çıxış edir. Əhalinin sosial təminat məsələləri üzrə hüquqi mübahisələr sahəsində hüquqi biliklərini artırılmasının digər elementi kimi respublikamızın ali və orta ümumtəhsil məktəblərində təhsil alan şəxslərin sosial təminatın əsasları ilə tanış edilməsi çıxış edir. Bu məqsədlə müvafiq tədris proqramı hazırlanmalı və orada əsas məsələ sosial təminat hüquqlarını müdafiəsi mexanizmi ilə bağlı olmalıdır.

Son dövrlərdə vəkillik fəaliyyətimlə əlaqədar məhkəmələrdə sosial məsələlərlə bağlı mübahisələrə baxarkən hakimlərin sosial qanunvericiliyin mahiyyətini tam şəkildə bilmədikləri aşkar şəkildə görsənir. Bu hallar daha çox inzibati məhkəmlərdə inzibati orqanların qərarlarından verilən şikayətlərdə açıq şəkildə görsənir. Eyni zamanda, son dövrlər müxtəlif məhkəmə instansiyaları tərəfindən eyni hal üzrə fərqli qərarların çıxarılması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə vətəndaşlar arasında ciddi anlaşılmazlıq və problemlərin yaranmasına gətirib çıxarmışdır. Sosial təminat sahəsində mübahisələrin obyektiv, sosial təminat qanunvericiliyinin tələblərinə və onun fəlsəfəsinə uyğun olaraq həll edilməsi səmərəliyini artırmaq baxımından, eləcədə sosial təminat sahəsində qanunvericiliyinin tətbiqi ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə hesab edirik ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq sturukur bölmələrinin əməkdaşları, bu sahədə tanınmış mütəxəssislərin, vəkillərin iştirakı ilə Ali Məhkəmənin və apelyasiya məhkəmələrinin inzibati kollegiyalarının və inzibati məhkəmələrin hakimləri ilə mütəmadi olaraq sosial təminat qanunvericiliyi ilə bağlı birgə dəyirmi masaların və ictimai müzakirələrin keçirilməsi məqsədəmüvafiq olardı.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2021, 100 s.
2. «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının 07 fevral 2006-cı il tarixli Qanunu/ www.e-qanun.az
3. Əliyev M.N. Sosial təminat hüququ. Dərslik. Bakı: Adiloğlu, 2007
4. Əliyeva F.M. Bazar iqtisadiyyatı şəraitində sosial təminat hüququnun predmetinin bəzi məsələləri/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 3 , s. 172-183
5. Əliyeva F.M. Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin ümumi xarakteristikası // Nəqliyyat hüququ, Bakı, 2012, № 3, s. 215-227
6. Məlikova M.F. Hüquq nəzəriyyəsi.Dərslik.Bakı:Elm və təhsil, 2019, 448 s.
7. Mürşüdov R.İ. Sosial təminat hüququnun nəzəri aspektləri. Bakı: Avropa, 2015, s.164 182 s.
8. «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikasının Qanunu/ www.e-qanun.az
9. “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanunu/ www.e-qanun.az
10. Галаганов В.П. Право социального обеспечения. Москва, КноРус, 2014
11. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения России: Учебник. М.: Волтерс Клувер, 2013
12. “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanunu/ www.e-qanun.az


**Маис Алиев**

**Спор в сфере социального обеспечения: правовой аспект**

В статье рассматриваются теоретические, а также практические аспекты правового регулирования отношения по социальному обеспечению. Автор на основании анализа споров по вопросам социального обеспечения показывает, в какой степени являются показателем социальные споры, проводимые государством в области осуществлении социальной политики для потребностей граждан. Механизм рассмотрения споров в данной области выступает в качестве одного из элементов механизма социального контроля, проводимой в юрисдикционной сфере.

**Mais Aliyev**

**Dispute in the sphere of social security: legal aspect**

The article discusses the theoretical as well as practical aspects of the legal regulation of social security relations. Based on the analysis of social security disputes, the author shows the extent to which social disputes conducted by the state in the implementation of social policies for the needs of citizens are an indicator. The dispute resolution mechanism in this area acts as one of the elements of the mechanism of social control carried out in the jurisdictional sphere.